SİYASƏT

Namizəd Səfərova 8 il həbs cəzası tələb olunub

Noyabr 19, 2026



Namizəd Səfərov

Vəkillər Kollegiyasının keçmiş üzvü, bir ilə yaxındır həbsdə olan hüquqşünas **Namizəd Səfərov**a 8 il həbs cəzası istənilib. Noyabrın 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində prokuror bu təkliflə çıxış edib.

Prokuror deyib ki, N.Səfərova qarşı irəli sürülmüş dələduzluq ittihamı məhkəmədə sübuta yetirilib.

72 yaşlı hüquqşünas isə özünü təqsirli bilmir və ittihamın saxta olduğunu bildirir. Noyabrın 19-da məhkəmədə prokurorun çıxışından öncə həm özü, həm də vəkilləri 19

vəsatət qaldırıblar. Onlar deyiblər ki, həqiqətin üzə çıxması üçün qaldırdıqları məsələlərin araşdırılması vacibdir.

N.Səfərov **Günel Əfəndiyeva** adlı qadından işə düzəltmək adı ilə 53 min manat pul alaraq onu aldatmaqda ittiham olunur. Özü isə bildirir ki, həbsindən öncə nə bu qadınla görüşüb, nə də ondan pul alıb.

Vəkillər vəsatət qaldırıblar ki, telefon anten məlumatları və kamera görüntüləri alınaraq araşdırılsın. Bununla da zərərçəkmiş G.Əfəndiyevanın dediyi vaxtlarda və yerlərdə onların N.Səfərovla görüşüb-görüşmədiyinə aydınlıq gətirilsin.

Amma Mahirə Kərimovanın sədrlik etdiyi hakimlər kollegiyası bu vəsatətləri təmin etməyib. Ümumiyyətlə, noyabrın 19-da müdafiə tərəfinin qaldırdığı 19 vəsatətin heç biri təmin olunmayıb.

N.Səfərov və onun vəkilləri məhkəmənin bu cür gedişinə etiraz ediblər. Onlar deyiblər ki, məhkəmə faktiki olaraq heç bir araşdırma aparmaq istəmir.

Hakim **M.Kərimova** məhkəmə istintaqının yekunlaşdığını elan edəndə də müdafiə tərəfi narazılığını bildirib: **"Nə araşdırma aparıldı ki, məhkəmə istintaqı da yekunlaşdırılsın?!".**

Məhkəmə istintaqı yekunlaşandan sonra prokuror çıxış edərək N.Səfərovun 8 il azadlıqdan məhrum olunmasını istəyib.

Noyabrın 26-da keçiriləcək növbəti məhkəmə iclasında N.Səfərovun vəkilləri müdafiə nitqi ilə çıxış edəcək, ardınca özü son sözünü deyəcək və hökm oxunacaq.

Xatırlatma

Namizəd Səfərov 2025-ci il dekabrın 9-dan həbsdədir. Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb.

Hüquqşünas ittihamı rədd edir və siyasi fəaliyyətinə görə cəzalandırıldığını deyir: **"Savadsız bir adamı harada işə düzəldəcəkdim? Özü də guya 53 min manat pul verib... Mən o qadını ümumiyyətlə tanımamışam. Ortada da sübut olaraq nə telefon zəngi var, nə yazışma...".**

N.Səfərov Milli Şuranın üzvü olub, 2020-ci ildə bu qurumdan istefa verib. O, son dövrlərdə xaricdəki mühacirlərin formalaşdırdığı Azərbaycan Xalq Parlamentinin üzvü idi.

Səfərov həmçinin müxtəlif illərdə deputatlığa və prezidentliyə namizədliyini irəli sürüb.

Hüquq-müdafiə təşkilatlarının hazırladıqları siyahıya görə, hazırda Azərbaycanda 322 nəfər siyasi məhbus var.

Azərbaycan rəsmiləri isə ölkədə siyasi məhbus olması barədə deyilənlərlə razılaşmır və vurğulayırlar ki, adları siyasi məhbus siyahısında yer alan şəxslər konkret törətdikləri cinayətlərə görə mühakimə ediliblər.

Buna da bax:

'Human Rights Watch' meclis.info həmtəsisçilərinin azadlığını tələb edir

Apellyasiya məhkəməsi Anar Məmmədlinin işini yenidən araşdırmaqdan imtina etdi

Həbsdəki jurnalistlərin və fəalların çağırışını eşidən varmı: 'Birləşməyə adam qalmayıb'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur